*Fuad Maarif oğlu İBRAHİMOV*
*iqtisad üzrə fəlsəfə doktoru,*
*“Sosial-iqtisadi və Ekoloji Tədqiqatlar Mərkəzi” İctimai Birliyi, Bakı, Azərbaycan,*
*e-mail: fuadibrahim@mail.ru*

# AQRAR-SƏNAYE FƏALİYYƏTİNDƏ ƏTRAF MÜHİTİN SAĞLAMLAŞDIRILMASINA İNNOVASİYALI YANAŞMALAR

***Xülasə***

Məqalədə müasir dövrdə ətraf mühitin sağlamlaşdırılması istiqamətində görülən və nəzərdə tutulan tədbirlərin elmi-nəzəri və təcrübi xarakteristikalarına münasibət bildirilmişdir. Ətraf mühitin sağlamlaşdırılmasına innovasiyalı yanaşmalar xarakterizə edilmişdir. Ekoloji böhranın aradan qaldırılmasında innovasiya amilinin rolu müəyyən edilmişdir.

***Açar sözlər: ətraf mühit, innovasiya, aqrar-sənaye sahələri, dayanıqlıq, sağlamlaşdırma, mühafizə.***

***

Ümummilli Lider Heydər Əliyevin aqrar-sənaye sahələrinə daimi diqqəti və himayədarlığı ölkəmizdə bu sahələrin inkişafına təkan vermiş, dövlət siyasətinin atributuna çevrilmişdir. Dövlətin himayəsinə ehtiyacı olan kənd təsərrüfatına belə sistemli münasibət, başqa sözlə, istehsal və emal sahələrinin vəhdətinə yönəlmiş baxış elmi-nəzəri və təcrübi baxımdan özünü doğrultmuşdur. Ötən əsrin 90-cı illərinin əvvəllərində idarəetmənin bütün səviyyələrində səriştəsizlik, digər sahələrdə olduğu kimi aqrar-sənaye sahələrində tənəzzülü sürətləndiməklə, məşğulluğa, ərazi inkişafına və ətraf mühitə böyük zərər vurdu. Xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndər müasir Azərbaycanın banisi oldu. Bu dövrdə başlanan əsaslı siyasi, iqtisadi, institusional və digər islahatların gedişində ətraf mühitin mühafizəsi məsələlərinə daim xüsusi önəm verildi.

Artıq Azərbaycanın siyasi və iqtisadi müstəqilliyi, enerji təhlükəsizliyi təmin edilmiş, o cümlədən ekoloji təhlükəsizlik məsələlərinin həlli üçün mühüm addımlar atılmışdır. Ətraf mühitin sağlamlaşdırılması istiqamətində normativ – hüquqi bazanın formalaşdırılması sistemli xarakter almışdır. Bu baxımdan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı “Fitosanitar nəzarəti haqqında” Azərbaycan Respublikasının Qanunu (2006-cı il № 102-IIIQ), “Ekoloji təmiz kənd təsərrüfatı haqqında” Azərbaycan Respublikasının Qanunu. (2008-ci il № 650-IIIQ), “Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında” Azərbaycan Respublikasının Qanunu (dekabr 2011-ci il № 273-IVQ), “Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu (2018-ci il № 1175-VQ) xüsusi qeyd edilməlidir.

Ətraf mühitin mühafizəsinə innovasiyalı yanaşmaların zəruriliyi gündəlikdədir. Sənaye əsaslı aqrar sahənin inkişafı və ətraf mühitin qorunması istiqamətlərində fəaliyyətin hüquqi təminatının yaradılması baxımından “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı (12 sentyabr 2018-ci il № 263) və “Elektron kənd təsərrüfatı” informasiya sistemi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin Fərmanı (23 dekabr 2019-cu il № 897) həlledici təkan rolu oynamışdır.

Azərbaycanda aqrar sahənin dayanıqlı və innovasiyalı inkişafı prioritetləri müvafiq dövlət sənədlərində öz əksini tapmışdır. Kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsində göstərildiyi kimi dövlət “Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üzrə 2025-ci ildən sonrakı dövr üçün gələcəyə baxış yüksək texnoloji inkişafa əsaslanan, sənayeyönümlü, ətraf mühitə dair standartların tələblərinə uyğun və qlobal dəyər zənciri sisteminə səmərəli inteqrasiya olunmuş kənd təsərrüfatının formalaşdırılmasını nəzərdə tutur” [1. s.47].

Dayanıqlı inkişaf konsepsiyasında insanın iqtisadi, ekoloji və digər fəaliyyətində ətraf mühitin sağlamlaşdırılması vektoruna xüsusi önəm verilir. Dayanıqlıq halı və dayanıqlı inkişaf

anlayışına gözlənildiyi kimi fərqli yanaşmalar vardır. Bu məsələ üzrində dayanmadan, hesab edirik ki, aşağıdakı yanaşma daha münasibdir. "Dayanıqlıq dinamik vəziyyət kimi mürəkkəb iqtisadi sistemlərin arzu olunan halıdır. Aqrar və sənaye inqilabından sonra dünyanı dəyişdirməyə qabil olan ekoloji inqilab dayanıqlı inkişaf baxımından bir çox dəyərlərin yenidən dərk edilməsini tələb edir" [2, s. 35].

Ətraf mühitin mühafizəsi problemlərinə innovasiyalı yanaşma təbiətə münasibətdə insanların narahatlığından xeyli sonra təşəkkül tapmışdır. Belə vəziyyət aşağıdakı mənbədə göstərildiyi kimi ekoloji böhranın qarşısının alınmasını çətinləşdirir. "Mahiyyətcə yeni texnologiyalar, bazar həlləri və tənzimləmə insanların yaratdığı bugünkü ekoloji böhranları həll etmək üçün heç də kifayət etməmişdir [3].

Aqrar-sənaye fəaliyyətində ətraf mühitin sağlamlaşdırılması ərazi inkişafı məsələləri ilə birgə həll edilməlidir. Odur ki, aqrar bölgələrin və kənd yerlərinin dayanıqlı inkişafına ətraf mühitin qorunması aspektində baxılması diqqətə layiqdir [4].

Dayanıqlı aqrar-sənaye sahələrində istehsalın modelləşdirilməsi innovasiyalı yanaşmaların əsaslandırılması baxımından mühüm mərhələ hesab edilir. Bu zaman, əsas parametrlər qismində aşağıdakılara önəm verilməlidir:

- təbii resurslar bazarının və ətraf mühitin faktiki vəziyyəti, habelə müvafiq əsas xarakteristikaların dəyişmə dinamikası;
- təbii resurslardan istifadənin cari və gözlənilən səmərəliliyi;
- aqrar istehsalın rəqabət qabiliyyəti və s.

Ətraf mühitin mühafizəsi və təbii landşaftın bərpası tədbirləri ekoloji risklərin səmərəli idarə edilməsi üçün innovasiyalı yanaşmalar tələb edir. Bu məqsədlə, ilk növbədə ekoloji risklərin neytrallaşdırılması üçün innovasiyalı biznes modellər əsasında daha təkmil risk-menecmentə ehtiyac hiss olunur. Bu prosesdə texnoloji və aqrotexnoloji risklər diqqət mərkəzində olmalıdır. Unutmaq olmaz ki, məhz texnoloji risklər ətraf mühitdə göslənilməz və bəzi hallarda qarşısıalınmaz fəsadlar törədə bilər.

Müasir elmi dövriyyəyə daxil olmuş yaşıl texnologiyaların əsasən innovativ xarakterli olduğu qeyd olunur. Həmin texnologiyalar təbii sərvətlərin daha səmərəli istifadəsi sayəsində insanların və digər canlıların həyat keyfiyyətinin artırılmasına xidmət etməklə yanaşı, həmçinin istifadə edilmiş məhsulların istehsal dövriyyəsinə qaytarılmasını nəzərdə tutur.

Ekoloji problemlərin kəskinləşməsi aqrar-sənaye fəaliyyətlərinə innovasiyalı yanaşmaların formalaşmasında yaşıl iqtisadiyyat tələblərinin nəzərə alınması və adaptasiya proseslərinin sürətləndirilməsinə olan ehtiyacı artırır. Son tədqiqatlarda qlobal ekoloji böhran və yaşıl iqtisadiyyatın inkişafı imkanlarına, hər şeydən əvvəl aşağıdakılar aid edilir [5]:

- bərpa olunan enerji mənbələrinin tədqiqi;
- su hövzələrinin və digər su resurslarının öyrənilməsi;
- ekoloji təmiz əkinçiliyin inkişafı və onun arealının genişləndirilməsi;
- su resurslarının və onların istifadəsi tullantıların idarə olunması sisteminin təkmilləşdirilməsi;
- ekoloji təmiz nəqliyyat sisteminin və şəbəkəsinin inkişafı və s.

İnnovasiyalı aqrar-sənaye fəaliyyətinin dayanıqlı inkişaf konsepsiyasına və yaşıl iqtisadiyyat tələblərinə uyğunlaşdırılmasının alternativi, demək olar ki, yoxdur. Dayanıqlı inkişafa və yaşıl iqtisadiyyata istiqamətlənmiş innovasiyalı fəaliyyətin məcmu səmərəliliyi problemlərinə həsr olunmuş tədqiqatlarda yaşıl texnologiyalara keçid komponentlərinə aşağıdakılar aid edilir:

- "ənənəvi olmayan (alternativ) enerji mənbələrindən, o cümlədən bərpa olunan enerji mənbələrindən geniş istifadə;
- enerji təsərrüfatının ətraf mühitə antropogen təsirinin azaldılması;
- istixana qazları emissiyaları üzrə kvota mübadiləsinin inkişafı;
- yaşıl iqtisadiyyat sahəsində hüquqi tənzimləmənin təkmilləşdirilməsi;
- enerjiqoruyucu texnologiyalar sahəsində kadr hazırlığının daha səmərəli sisteminin yaradılması" [6, s.52].

Aqrar-sənaye sahələrində ətraf mühitin bərpasına xidmət edən yaşıl artımın dəstəklənməsinə yönəlik innovasiyalarda texnoloji, ekoloji və iqtisadi innovasiyaların vəhdəti təmin edilməlidir. Aqrar iqtisadiyyatın yaşıl inkişaf reqlamentlərinə uyğun olaraq yenidən qurulması problemlərinə həsr olunmuş mənbələrdə adekvat innovasiyalı modeldə iqtisadi artımı şərtləndirən əsas amillərə aşağıdakılar aid edilir:

"- təbii resurslardan səmərəli istifadə edilməsi məqsədi ilə stimulların yaradılması, habelə məhsuldarlığın yüksəldilməsi, yaranan tullantıların və enerji daşıyıcıları istehlakının azaldılması;

- ciddi ekoloji problemlərin həllinə yönəlmiş innovasiyaların istehsal və istehlak proseslərində ətraf mühitin çirklənməsinin daha yüksək xərclərinin qarşısını alan hüquqi-iqtisadi tədbirlərlə müşayiət olunması;

- yaşıl texnologiyalara, məhsullara və xidmətlərə tələbi stimullaşdırmaqla yeni bazar seqmentlərinin və yeni iş yerlərinin yaradılması və s." [7, s.43-44].

Aqrar - sənaye sahələrində dayanıqlı inkişaf konsepsiyasının tələblərinə uyğun innovasiyalı fəaliyyət problemlərinin tədqiqi nəticələrinə əsasən demək olar ki, sektorda innovasiyaların dəyər zəncirinin bütün komponentlərini əhatə etməsi məqsədəuyğun hesab olunur. Təcrübi baxımdan aqrar-sənayedə ekoloji xarakterli yaxud ekologiyanın yaxşılaşdırılmasına, bu və ya digər dərəcədə xidmət edən innovasiyalara aşağıdakılar aid edilə bilər:

- bərpa olunan (alternativ) enerji mənbələrindən istifadə;
- resursqoruyuculuq;
- ərazilərin dayanıqlı və tarazlı inkişafı;
- ərzaq və qida təhlükəsizliyinin təminatı və s.

Həmin innovasiyalara olan ehtiyacın kəmiyyət və keyfiyyətcə müəyyən edilməsi məqsədi ilə aqrar və emal fəaliyyətinin ətraf mühitə neqativ təsirlərinin neytrallaşdırılması dərəcəsini və nəticə etibarı ilə yaşıl iqtisadiyyata keçidin cari vəziyyətini qiymətləndirmək üçün bütün digər göstəricilərlə yanaşı ekoloji innovasiya layihələrinin faktiki səmərəliliyini səciyyələndirən göstəricilər də təhlil edilməlidir.

Təsərrüfatçılıq təcrübəsində texnoloji innovasiyaların ətraf mühitə təsirinin xarakteristikası və onların qarşılanması müvafiq tədbirlərin hazırlanması prosesində təhlil və qiymətləndirmələr üçün qayda və təlimatlar mövcuddur. Ətraf mühitin mühafizəsinə innovasiyalı yanaşmaların əsaslandırılması üçün belə təhlil, yalnız xüsusi qeyd-şərtlərlə məqbul hesab oluna bilər.

Deyilənləri ümumiləşdirərək qeyd edək ki, ətraf mühitin sağlamlaşdırılmasına innovasiyalı yanaşmaların xarakterik xüsusiyyətlərinə aşağıdakılar aid edilir:

- ekoloji vəziyyətin yaxşılaşdırılmasına innovasiyalı yanaşmalar risklərin idarə edilməsi sistemində kreativ baxışlarlara əsaslanmalıdır;
- ətraf mühitin sağlamlaşdırılması problemlərinə innovasiyalı yanaşmalar rəqəmsal mühitin üstünlüklərinin reallaşdırılmasını nəzərdə tutmalıdır;
- ətraf mühitin mühafizəsi üzrə innovasiyalar ərazi idarəetməsi sisteminə daxil edilməlidir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli1138 nömrəli Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016, 177 s.,s.47
2. Hüseynov M.C. Aqrar sahənin dayanıqlı inkişaf problemləri.Bakı, 2006, 304s., s.35
3. LucasHaskell, Karl Johan Bonnedahl, Herman I.Stål. Social innovation related to ecological crises: A systematic literature review and a research agenda for strong sustainability. Journal of Cleaner Production. Volume 325, 20 November 2021, 129316 https://doi.org/10.1016/j.jclepro.2021.129316
4. Masot Ana Nieto, Gurría José L. (2021) Sustainable Rural Development: Strategies, Good Practices and Opportunities. April 2021. Land 10(4):366.DOI:10.3390/ land 10040366.
5. Vukovic, Natalya. (2018). Green Economy: Definition and Main Directions of Development. Bulletin of Ural Federal University. Series Economics and Management. 17. 128-145. 10.15826/vestnik.2018.17.1.006

6. Давыдова Т.Е., Попова А.И., Распопова А. Зеленая экономика в контексте глобального устойчивого развития. ЭКОНОМИНФО. 2020. Т.17. № 1, c.49-54, s.52
7. Животовская И.Г. "Зеленая экономика" как глобальная модель устойчивого экономического развития в XXİ в. Журнал: "Зеленая экономика" как глобальная стратегия развития в посткризисном мире.2016, c.7-57, s.43-44

***Фуад Маариф оглы Ибрагимов***
***доктор философии по экономике***

**Инновационные подходы к экологической деятельности в агропромышленности**

***Резюме***

В статье изложено отношение к научно-теоретическим и экспериментальным характеристикам принимаемых и планируемых мер в направлении оздоровления окружающей среды в современную эпоху. Охарактеризованы инновационные подходы к гигиене окружающей среды. Определена роль инновационного фактора в преодолении экологического кризиса.

***Ключевые слова: окружающая среда, инновации, агропромышленные отрасли, устойчивость, оздоровление, защита.***

***Fuad Maarif Ibrahimov***
***doctor of philosophy in economics***

**Innovatıve approaches to envıronmental enhancement ın agrıcultural-ındustry actıvıty**

***Summary***

The article outlines the attitude to the scientific, theoretical and experimental characteristics of the measures taken and planned towards improving the environment in the modern era. Innovative approaches to environmental hygiene are characterized. The role of the innovation factor in overcoming the environmental crisis is determined.

***Key words: environment, innovation, agro-industrial sectors, sustainability, recovery, protection.***